## Əlifba və Dil Keçid Dövründə
## Baş Məqalə - Betti Bleyer

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 8.1 (Yaz 2000)
© 2003. Azerbaijan İnternational
AZERİ.org

Məşhur Yunan yazıçısı və "Zorba Yunan" əsərinin müəllifi Nikos Kazanzakis həddən artıq işləməsi ilə tanınmışdı. Günlərlə o, iş stolundan ayrılmazdı. Onun dostları narahat olur və ona xəbərdarlıq edərdilər: "Canının qayğısına qal. Onu istismar etmə. O, bu dünyada sənin ruhunu daşıyan yeganə ulaqdır."

Məna etibarilə eyni analoqu dil və  mədəniyyətin əsl "işlək atı" hesab olunan "əlifba" adlandırdığımız bu yaradılışa aid etmək olar. Əlifbalar bizim bütün kəşflərimizin, fikirlərimizin və inamlarımızın yazılı formasının yükünü daşıyırlar. Əlifba həm tarixi, həm də çoğrafi baxımdan bizim fiziki mövcud olduğumuz yerdən kənarda olan dünya ilə əlaqə yaradır. Buna görə də biz bu simvollara hörmət etməli və onların qayğısına qalmalıyıq.

### Dörd Əlifba Dəyişikliyi

Azərbaycan üçün ötən bu əsrdə olan bəla, əlifbanın—bu yük daşıyıcısının dörd dəfə dəyişilməsi olmuşdur ki, bunun nəticəsində millət hədsiz dərəcədə mədəni sərvət itirmişdir və hələ də bundan əziyyət çəkir.

İlk dəyişiklik zamanı minilliklər boyunca işlədilmiş ərəb əlifbası latın əlifbası ilə əvəz edildi. Bu keçid 1923-cü ildə latın əlifbası ərəb əlifbası ilə yanaşı dövlətin rəsmi əlifbası elan edildikdə baş verdi. 1929-cu ildə Sovetlər ərəb əlifbasının üzərinə qadağa qoydular və Azərbaycanın şəhər və kəndlərində və eynilə də Orta Asiyanın türkdilli dövlətlərində əlifbanı və İslamla bağlı hər şeyi aradan götürmək məqsədilə kitabların yandırılması kampaniyasına başladılar.

1939-cu ildə mədəniyyət daşıyıcısı olan əlifba yenidən dəyişdirildi. Bu dəfə Stalin latın əlifbasının bütün türkdilli dövlətlərin və Türkiyənin ona qarşı müttəffiqləşməsində birləşdirici faktor rolunu oynaya biləcəyindən ehtiyatlanaraq latın əlifbasından kiril əlifbasına keçmək əmri verdi. Beləliklə o, kiril əlifbasını məcburi qəbul etdirdi. Nəhayət 1991-ci ildə Sovet İttifaqı dağıldıqdan və Azərbaycan müstəqillik əldə etdikdən sonra

atılan ilk addımlardan biri də kiril əlifbasını rədd edib yenidən bir daha Stalin 50 il əvvəl müdaxilə etdiyi dövrə qədərki latın əlifbasının qəbul edilməsi oldu.

**Yetim Qalmış Gənclik**

Bu əlifba dəyişikliklərinin heç biri uğurlu olmamışdır, belə ki, bunun nəticəsində gənc nəsil cəmiyyətin daha yaşlı üzvləri tərəfindən toplanmış biliyi əldə etmək imkanından məhrum olmuşdur. Hər əlifba dəyişikliyində gənc nəsil milli, mədəni və tarixi bilik mənbələri axtarışında tənha qalırdı. Çox vaxt həmin dəyərli xəzinələr sürətlə axan siyasi və iqtisadi axına buraxılaraq birdəfəlik yoxa çıxırdılar. Tarixçilər yəqin ki, bu dörd əlifba dəyişikliyinin bu əsrdə Azərbaycan üçün baş verən ən faciəli hadisələrdən biri olduğunu yazırlar.

Yazılı materiallar ya "siyasi cəhətdən düzgün olmadığına görə" məhv edildiyindən, ya da sadəcə olaraq gənc nəsil onları oxuya bilmədiyindən intellektual ehtiyatlardan lazımi səviyyədə istifadə edilə bilmirdi. 1999-cu il, payız nömrəmizdə mərhum professor Asəf Rüstəmovun təqdim etdiyi "Kitablarımızı yandırdıqları gün" məqaləsini oxuyun (Aİ 7.3, səh. 74).

**Hərtərəfli Düşünülmüş Seçim**

1923-cü ildə latın əlifbasının qəbul edilməsi qərarı görünür digər dəyişikliklərdən fərqli olaraq çox hərtərəfli düşünülmüş və götür-qoy edilmişdi. Bir neçə il sonra Stalin rejimi tərəfindən məcburi qəbul etdirilmiş kiril əlifbasından fərqli olaraq, dini ənənə nəzərə alınaraq hərtərəfli müzakirə olunmuşdu. Ziyalılar ərəb dilinin milləti geridə qoyduğunu və inkişafa imkan vermədiyini iddia edirdilər. Onlar Avropada baş verən sürətli inkişafa və sənayeləşməyə həsədlə baxırdılar ("Molla Nəsrəddin jurnalında dil və əlifba dəyişiklikləri" məqaləsindəki illüstrasiyalara baxın. (səh. 62-63)).

Latın əlifbasının tərəfdarları farslaşdırılmış ərəb əlifbasının bəzi qüsurları olduğundan, Azərbaycan səs sistemini dəqiq əks etdirən bir əlifbanın olmasını istəyirdilər. Bəzi hərflər eyni səsi ifadə etdiyi halda (t, s, z), sözün mənasını anlamaqda böyük rol oynayan digər səsləri (ə, ı, ö və ü) ifadə edən heç bir hərf yox idi.

Muzeylər istisna olmaqla (50-52-ci səhifədəki tarix elmləri doktoru və biologiya elmləri namizədi Fərid Ələkbərov tərəfindən yazılmış "Əlyazmalar İnstitutu: Azərbaycanda ilkin əlifbalar" məqaləsinə baxın) Azərbaycan Respublikasında çox nadir halda ərəb əlifbası ilə yazılmış kitab tapmaq olar. 25-30 milyon azərbaycanlının yaşadığı İranda eyni əlifbanın işləndiyinə və hələ də təsir qüvvəsini saxlamasına baxmayaraq, Azərbaycanda bu əlifbanı oxuya bilən gənclərə çox nadir hallarda rast gəlmək olar.

Əlbəttə mübahisə edilə bilər ki, əsrin əvvəllərində çox az adamın ərəb əlifbasında oxumaq savadı var idi və çox az kitab dərc edilmişdi. Lakin həmin əlyazmalar arasında çox nadir sayılan dəyərli məlumatları, xüsusilə də tibb sahəsində təbii otların müalicəvi əhəmiyyətindən bəhs edən sənədləşdirilmiş materialları unutmaq olmaz. Toplanmış

həmin o nadir informasiyanın çox hissəsi yandırılaraq məhv edilmişdi. Bu yalnız Azərbaycan üçün deyil, həmçinin xüsusilə də müasir tibbin ənənəvi tibbin sirlərini açmağa cəhd göstərdiyi bir dövrdə bütün dünya üçün böyük bir itkidir.

### Kiril Əlifbası Məcburi Qəbul Etdirildi

Stalin 1939-cu ildə, Stalin Represiyası adlanan bir dövrün ən yüksək zirvəsi zamanı kiril əlifbasını qəbul etdirdi. Bu elə bir dövr idi ki, Azərbaycanda və bütövlükdə Sovet İttifaqında minlərlə ziyalıların bu rejimin həyata keçirdiyi siyasətə qarşı çıxdıqlarından şübhələnərək həbs edilib ya güllələnmiş, ya da ki, Sibirə sürgün edilmişlər. Kiril əlifbasının çox zəif müqavimətlə qarşılanmasında təəccüblü nəsə varmı? Azərbaycanlılar rus dilini ifadə etmək üçün yaradılmış əlifbanın Azərbaycan səs sistemini pozmayacağına ümid edərək bu əlifbanı qəbul etməyə təslim oldular (Səhifə 52-də  Səməd Vurğun məqaləsinə nəzər yetirin).

### Yenidən Latın Əlifbası

Bu günlərdə yenidən kiril əlifbasından latına keçid baş verir. Yenə də dəli dalğalar qiyməti ölçüyə gəlməz dəfinə ətrafında burulğan yaradır. Vəziyyət isə bu dəfə əvvəlkilərdən tamam fəqlidir. Əvvəlki dövrlərlə müqayisədə indi 70 il Sovet hakimiyyəti dövründən qalmış çoxlu yazılı material vardır ki, onları azərbaycan latın əlifbasına keçirmək lazımdır. Əgər gənc nəsil bu materialları oxuya bilməsə, əvəzolunmaz itki baş verəcəkdir.

Ötən əsrin əvvəllərində ərəb əlifbasından latın əlifbasına keçid zamanı (səhifə 58-61-də 1926-cı ildə keçirilmiş Türkologiya Konqresinə dair məqaləyə nəzər yetirin) bir vəkil inad edirdi ki, ərəb əlifbasında yazılmış kitabların yenidən nəşrinə çəkilən xərc bir xətt gəmisinə çəkilən xərcdən çox olmayacaqdır və onun fikrincə bu məbləği ödəmək heç də çətin olmazdı.

Bu gün isə vəziyyət başqa cürdür. Maliyyə çətinliyi ilə üzləşən Azərbaycan üçün bir hərb gəmisi bəs etməzdi. Bir nəşriyyat evinin direktorunun hesablamalarına görə əgər keçid yaxşı planlaşdırılmışsa (o bunun yaxşı planlaşdırılmadığını təkid edir), onda əsas əsərlərin yenidən nəşri 15 il çəkə bilər.

Lakin Azərbaycanın öz problemlərini həll etməyə çalışdığı bu növbəti 15 il ərzində internetdə veb səhifələrinin artırılması ilə gənc nəslin əldə edə bilməsi üçün kim bilir nə qədər material olacaqdır. Vaxt isə gözləməyəcəkdir. Azərbaycan özünün 21-ci əsrə daxil olması üçün təkan verməlidir, əks halda o, geridə qalacaqdır.

### Əfsanəvi Sürət

Azərbaycanın hazırda bu yükü daşımaq üçün ulağa deyil, Koroğlunun hər zaman sahibini təhlükədən qurtararaq ölümdən xilas edən Qıratı kimi işıq sürəti ilə gedə biləcək ata ehtiyacı vardır. Azərbaycanlıların bir çoxu bilmir ki, Qırat hələ də sağdır, yaşayır və artıq kompüterlər və bir sıra digər texnologiyalar qismində mövcuddur.

Təəssüf ki, yaşlı nəslin bir çox nümayəndələri kompüterlərin gücünü anlamırlar və çox vaxt da qərarları verən məhz onlardır. Onlar uşaqlıqlarından bəri kompüterlərdən heç vaxt istifadə etməmişlər və bu sahədə heç bir təcrübələri yoxdur. Onların çoxu kompüterə çap maşınının möcüzəli, mürəkkəb elektronik və əlbəttə ki, informasiyanı yaddaşında saxlaya bilmək və yerləşdirmək qabiliyyətinə malik olan və bir düyməni basmaqla həmin informasiyanı açmaq və internet vasitəsilə ümumdünya şəbəkəsi ilə əlaqələndirmək qabiliyyətinə malik bir növü kimi baxırlar.

Bu nömrəmizdə müzakirə etdiyimiz məsələlər "deja vü"–yə bənzəyir. 1993-cü ildə Azerbaijan İnternational öz ilk nömrələrindən birini əlifba dəyişikliyinə həsr etmişdi və mən də bir redaktor kimi şrift probleminə dair ilk məqaləmi yazdım. Bu məqalə "Başıaşağı "ə", Redaktorun narahatlıqları" adlanırdı (Bax: Aİ 1:3, səhifə 40). O vaxtdan düz 7 il keçməsinə baxmayaraq narahatlıqlar azalmaq əvəzinə daha da çoxalmışdır. Əsas problem hələ də standart Azəri şriftinin və ya kompüter klaviaturası üçün standart sxemin hazırlanmamasındadır. Standartlaşdırma tez-gec ehtiyac üzündən ediləcəkdir, amma hökumətin dəstəyi olarsa bu proses daha sürətlə və daha az enerji itkisi ilə gedə bilərdi.

Gənclər növbəti gecikmələr nəticəsində həddindən çox itki ilə üzləşəcəklər. Latın əlifbasını ilkin siniflərdən öyrənməyə başlamış gənc nəsil artıq ali məktəblərə daxil olmağa hazırlaşır. Və onların çox hissəsi valideynlərindən və nənə-babalarından daha az təhsillidirlər. Məktəbdə Azərbaycan bölməsində oxuyan şagirdlərin bəzi dərsliklərdən başqa çox az kitab oxumaq imkanları var. Ali məktəblərdə isə onlar kiril əlifbasında köhnə, aktuallığını itirmiş yalnız bir neçə dərs kitablarını əldə edə bilirlər. Belə ki, latın əlifbasında yüksək səviyyəli çox az kitab vardır. Uşaqlar nə etməlidirlər? Bu nəslin gəncləri üçün intellektual məlumat qıtlığı çox sonralar nəticələri üzə çıxa biləcək böyük bir problemdir.

Azərbaycanlılar kiril əlifbasında olan kitabları köhnə çap metodu ilə latın əlifbasna çevirməklə problemin həllinə arxalana bilməzlər. Bu çox bahalıdır və nəğd pula dəyişməyə kifayət qədər hərb gəmisi yoxdur. Bunun əvəzində onlar yeni texnologiyaya arxalanmalı və internetdən tam surətdə istifadə etmək üçün yaxşı strategiya yaratmalıdırlar. Müasir həyatı və bizim informasiyanı qəbul etmə vasitəmizdə çevriliş etdiyindən qoy bu yükü internet daşısın.

Bütün kitabları indi veb səhifələrdən götürüb kompüterlərə yükləmək mümkündür (Gutenberg.com saytına baxın). Kommersiya müəssisələri hazırda bir kitab ölçüsündə olan və daxilinə bir neçə kitab yerləşə bilən elektron kitab adlanan yeni ixtiralar üzərində işləyirlər. Bu Azərbaycanın problemlərini həll etmək üçün istifadə edəcəyi alət olmalıdır. Azərbaycan elmdən və tibbdən tutmuş riyaziyyata, tarixə və musisqiyə kimi hər bir sahədə, kiril əlifbasında olan materialların latın əlifbasına çevrilmiş variantları olan veb səhifələrinin nəinki hökumət tərəfindən, eynilə şəxsi sahibkarlar tərəfindən sayının

çoxaldılması işini sürətləndirməlidir. Biz yüzlərlə deyil, on minlərlə kitab haqda düşünməliyik.

Adətən bizim jurnalımız təsviri xarakter daşıyır və hədəf nöqtəmiz Azərbaycan haqda nə isə öyrənməyə çox az imkanı olan xaricilərdir. Ancaq bu dəfə ümid edirik ki, Əlifba və Dil dəyişikliyi nömrəmizdə bu problemdən dərin narahatçılıq keçirən və azərbaycan ictimaiyyəti daxilində bir iş görməyə çalışan azərbaycanlılara təkan verilməsində katalizator rolunu oynayacaq.

Bizim Azərbaycana xəbərdarlığımız belədir: Əlifbanın qayğısına qalın. Mədəni yükün bu dəfə əfsanəvi at olan Qıratın sürətindən də çox böyük sürətlə və qəhrəman gücünə malik bir güclə gələcək nəsillərə ötürülməsinə fikir verin. Bir də axı Yer adlanan bu iri addımlarla irəliləyən planetdə o, ruhunuzu daşıyacaq yeganə vasitədir.

---

Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Gülnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova